*Redaksiyanın arxivindən*

# 1916-cı il Britaniya qaynağı erməni problemi haqqında

**I Dünya müharibəsi 1914-1918-ci illərdə dünyanın ən böyük dövlətləri arasında arasıkəsilmədən davam edən silahlı toqquşmalar idi. Bu müharibədə Böyük Britaniya, Fransa və Rusiyanı birləşdirən hərbi ittifaq (sonradan ona ABŞ da qoşuldu) Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası və başqa kiçik dövlətlərə qarşı müharibə edirdi. Bu səbəbdən də ingilislərlə türklər əks-cəbhədə idilər.**

O dövrdə dörd cəbhədə vuruşan (Qafqaz, Şərqi Anadolu, Sinay yarımadası, Heliopolis) və şərq tərəfdən təzyiq altında olan Osmanlı hökuməti erməni əhalisinin bəzi hissələrini köçürmək haqqında qərar verdi. Bu qərar və ondan sonra baş verən bir sıra hadisələr Türkiyəylə müttəfiq və onlara qarşı vuruşan dövlətlər arasında müəyyən reaksiyaya səbəb oldu.

Bununla əlaqədar ingilis yazıçısı S.F.Dikson-Conson "Ermənilər həlledici 1916-cı ildə (1916)" kitabını yazır. Kitabın müqəddiməsində müəllif göstərir ki, "Qərb aləmində erməni məsələsini şişirtməyin başqa bir üzü vardır — o da hakimiyyət üçün yeni bir fürsətdir". O əlavə edir ki, ermənilərə üz vermiş ağır çətinliklərin faciələrə gətirib çıxara biləcəyinin günahı onları anlamadıqları işə təhrik edənlərin üzərinə düşür. Qədim tarix və ermənilərin irsi xüsusiyyətləri haqqında ilkin mülahizələr söyləyən yazıçı Səlcuq türklərinin hakimiyyətinə işarə edərək deyir ki, "o, mülayim və sərbəstlik verən" idi. O qeyd edir ki, "ilk türklər ölkənin inkişafında böyük işlər görmüş, qanunla hökm etmiş və çoxlu binalar tikmişlər. Nəhayət müəllif göstərir ki, Sultan II Mehmet onun hakimiyyəti altında yaşayan əhaliyə "din azadlığı" və bütün qeyri-müsəlman təbəqələrə, tayfalara və millətlərə öz dini rəhbərlərinin idarəsi altında dini və mülki hakimiyyət vermişdir".

Yazıçı Britaniya ensiklopediyasında ser Çarla Vilsonun məqaləsindən aşağıdakı icmalı verir: "Bu ermənilər qanun qarşısında görkəmli yer tuturlar və imtiyazlara malikdirlər. Əqidə azadlığı, kilsə və monastırlara sahiblik, övladlarını oxutmaq və öz mülki işlərini idarə etmək... hüquqları". Odisnom Çarlz Eliot da özünün "Türkiyə Avropada" (1900) kitabında qeyd edir ki, hətta 1877-78-ci illər rus-türk müharibəsindən sonrakı illərdə türklər və ermənilər əla dostluq şəraitində yaşayırdılar... Ruslar erməni kilsələrini, məktəblərini və dinini sıxışdırırdılar, türklər isə tamamilə bunun əksinə. Onlar bütün işlərdə daha səbirli və daha çox sərbəstlik verən idilər. Onları ermənilərin necə ibadət etməkləri, necə təlim almaları və necə danışmaqları maraqlandırmırdı... Ermənilər əsl şərqlilər kimi türk fikir və adətlərini bəyənir və xoşlayırdılar. Onlar türklərin arasında yaşamaqlarından razı idilər... Sərvət tərəzisi də artıq burada (Türkiyədə) tamamilə xristianların xeyrinə idi. Türklər onlara səmimi qəlbdən inanırdılar. (s.21) O, S.Qratan Cerrinin "Asiya Türkiyəsi boyunca" (1878) kitabından sitat gətirərək deyir: "Osmanlı hökumətində tam din azadlığıdır və hökumət xristianların dini işlərinə, məktəbdə və ya kilsədə nə öyrəndiklərinə heç vəchlə qarışmır". Cerri yazır: "Bundan artıq din və təlim azadlığı tələb etmək qeyri-mümkündür".

Bundan sonra S.F.Dikson-Conson ermənilər arasında gedən üsyankar meyillərin səbəblərinə toxunaraq təsdiq edir ki, Türkiyədə və həmçinin onun itirdiyi Salonik və qərb vilayətlərində ermənilərin sayı 1,5 milyon nəfərdir" (s. 22) Sonra o, erməni üsyanının arxasında gizlənən səbəbləri sayır. Bir daha C.Eliota işarə edir: "Üsyanın birinci amili... ölkəyə bir neçə protestantın və əcnəbi missionerlərin gəlməsidir".

Ser Edvin Pirz özünün "40 il Konstantinopolda" (1915) kitabında etiraf edir ki, "Ermənistanda və Bolqarıstanda siyasi fitnələrin təhrikçiləri katolik və ya protestant missioner məktəblərinin müdirləri idilər". Burada o, ser Mark Sayksın "Dar-ül-İslam: Türkiyənin 10 Asiya vilayətinə səyahət"dən qeydlər kitabından (1904) aşağıdakı mətni misal gətirir: "İngilisi yəhudiyə çevirmək mümkün olmadığı kimi, şərqli müsəlmanı da heç cürə xristian etmək olmaz. Buna görə də onların (missionerlərin) vəzifəsi xristianları bir təriqətdən başqa təriqətə (xristian) keçirməklə məhdudlaşırdı. Yakobinin Roma katolikliyinə, Roma katolikliyindən isə amerikan prisviterianlığına keçməyinə çoxlu pul xərclənirdi".

Yazıçı Dikson-Conson deyir ki: "Bu əməliyyat gözəl xasiyyətli şərqlini xarab edib yarımavropalı narazı bir asiyalıya çevirdi" (səh. 23). O həmçinin qeyd edir ki, "protestantlığı qəbul etmiş ilk ermənilər öz ermənilərinin şiddətli təqibinə məruz qaldılar. Onları bu daimi təqib və sıxıntılardan himayə etmək üçün Osmanlı Sultanı 1850-ci ildə belə bir əmr verdi: "Protestantlar ortodoks erməni kilsəsindən ayrılmış müstəqil bir dini icma kimi tanınır və erməni kilsəsinin rəhbərliyinə tabe deyildilər.

Yazıçıya görə "İğtişaşlara səbəb olan ikinci amil 1878-ci il Berlin sazişinə daxil edilmiş bəndlər idi... Bu bəndlər ermənilərdə belə bir fikir oyatdı ki, onların xüsusi imtiyazlar almağa haqları vardır. Bu da onları asanlıqla erməni məmləkəti və ya ən azı erməni dövləti yaratmaq ideyasına təhrik etdi". Yazıçı həmçinin Rusiyadakı nihilist hərəkatın inkişafının rolunu da qeyd edir və göstərir ki, "artıq Qafqaz ermənilərı sui-qəsdə əl atmışdı və onların rəhbərliyi müvəqqəti olaraq Tiflisdə idi. Erməni üsyançıları (inqilabçıları) Nyu-York, London, Paris və Vyanada şöbələrini açmış və özlərinin gizli təşkilatlarını yaratmışdılar". O bunu aşağıdakı qeydlərlə (s. 24-25) sübut edir: "Bu cəmiyyətlər Avropada və Amerikada yaşayan varlı erməni sahibkarları və tacirlərinə qarşı etdikləri quldurluqlar və hədə-qorxu ilə pul qoparmaq nəticəsində qısa bir vaxt ərzində varlı müəssisələrə çevrildilər... Şəraitə görə hədə və qətlə məruz qalan hörmət sahibi olan erməni vətəndaşları və din xadimləri tərəfindən pislənməsinə və nifrət bəslənilməsinə baxmayaraq onlar mərkəzi hökumətlə Avropa ölkələri arasında nifaq toxumu səpməyə cəhd göstərirdilər - törətdikləri cinayətlərin məsuliyyətini saxta sübutlar vasitəsilə missioner məktəblərinin üstünə atırdılar. London küçələrində ölümlə nəticələnən cinayətlər törədirlər. Nyu-Yorkda polis pul ələ keçirmək üçün hədə-qorxu qəsdinin üstünü açır, bomba partlayışları və qətllər varlı erməni tacirləri və bankirləri arasında ümumi qorxu yaradır... Bütün bunlar Türkiyə hökuməti və müsəlman əhalisinin xristianlarla, xüsusilə ortodoks erməni əhalisi ilə olan keçmiş yaxşı əlaqələrinin pozulmasına gətirib çıxardı.

Bu təbii bir hal idi. Türkiyədə adamlarda gizli cəmiyyətlərə və sui-qəsdlərə qarşı qorxu hissi yaranmışdı. Bunun da səbəbi onların bolqar "komitadikisləri və yunan" ucbatından çəkdikləri əziyyətlərin acı təcrübəsi idi... Onlar belə hesab edirdilər ki, əvvəllər "dost millətlər" kimi tanıdıqları adamlar artıq bu adı daşımağa layiq deyillər, çünki onlar silahlanır və müsəlmanlara qarşı qırğın törətməyə hazırlaşırlar..."

Yazıçı qeyd edir ki, İngiltərədə erməni tərəfdarı (yardım edən) olan cəmiyyətlər erməni vətəndaşını belə qələmə verirdilər: "O, fağır, yumşaq təbiətli, sakit, əkinçi, zəhmət və əziyyətlə qazandığı mal-dövlətini əlindən alan qəddar məmurlar tərəfindən əzilən bir adamdır... Onlar heç kəsə əziyyət verməyən dinc adamlardır" (səh. 25). Müəllif həmçinin lord Braysın "Tezliklə Mançesterdə" məqaləsinə işarə edərək göstərir ki, orada o erməniləri "daimi məruz qaldıqları zülmə baxmayaraq öz əqidəsinə möhkəm bağlı olan bir xalq" kimi təsvir edir. Yazıçı göstərir ki, lord Brays bu mülahizələri ilə öz oxucularının dini hissləriylə oynayır...

Dikson-Conson oxucunun diqqətini başqa bir ingilis mənbəyinə - Çarlz Vilsona cəlb edir. O, erməniləri belə təsvir edir: "onlar əsas etibarı ilə şərqlidirlər, sadə və ağıllıdırlar, öz işlərində barışıqlıdırlar... qədim əxlaq normaları və adətlərə çox bağlıdırlar... lakin, ... digər tərəfdən... acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar... heç kəsi bəyənmirlər... onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər, intriqa yaratmağı sevirlər..." (səh. 26-27).

Müəllif Qratan Cerridən aşağıdakı sitatları gətirir: "Ziyalı ermənilərin az bir hissəsi hansı yolla olursa-olsun heç vəchlə çoxluq təşkil etmədikləri ərazi üçün muxtariyyət əldə etmək arzusundadır. Bizi təəccübləndirən budur ki, onlar çoxluq təşkil edən müsəlmanlar üzərində necə hökmranlıq edə bilərlər... Kiçik Asiya türklərindir... katolik ermənilər orada azlıq təşkil edən əhalidir".

İngilis yazıçısı göstərir ki, hətta 1916-cı ildə (Britaniya ilə Türkiyə 3 cəbhədə qarşı-qarşıya vuruşduqları bir vaxtda) ermənilər Şərqi Anadoluda azlıq təşkil edirdilər, həmin rəqəmlərin həqiqi olduğunu sübut edən bir neçə başqa ingilis və fransız sənədlərinin də olmasına baxmayaraq mən Dikson Consonun yazısı ilə kifayətlənməyəcəyəm.

O, həmçinin Fred Bernabinin "At belində kiçik Asiya boyunca" kitabından aşağıdakı sənədləri verir: "Əgər ermənilərə Anadoluda ali hakimiyyət nəsib olarsa, onların hökuməti hazırkı idarədən də betər olacaq. Bunu ermənilər özləri də təsdiq ediblər" (səh. 28).

Sonra ser Mark Sayksın "Xəlifənin son irsi" (1915) kitabından ermənilər haqqında həqiqəti göstərən sətirlər verilir.

"...Onlar (ermənilər) əvvəlcədən fikirləşmədən və hazırlaşmadan daha düşüncəsiz siyasi cinayətlər törədəcək, heç bir tərəddüd etmədən özlərinə və başqalarına ziyan vuracaq və dağıntı gətirəcəklər; onlar öz qardaşlarını, qiymətli vətəndaşları təsadüfi qazanc, qənimət xatirinə qurban verəcəklər, ən az inandıqları, adamlarla belə əyri niyyətlər xatirinə geniş miqyasda əlbir olacaqlar, bir tərəfdən hayıf çıxmaq üçün öz milli problemlərini bir kənara atarlar, özləri üçün təhlükəli anlarda isə vaxtilə onların mənafeyinə xidmət edən adama xəyanət edir və onun haqqında təhqirlər, söyüşlər yağdırar, onu biabır edərlər... Erməni "inqilabçıları" ədavət etdikləri adamlarla vuruşmaq xatirinə öz dini normalarını (yaşayışlarını) belə tapdalayırlar; Konstantinopoldakı (İstanbul erməni terrorçuları öz həmvətənləri arasında qırğın alovunu yandırmaq məqsədilə bombaları partlatmışdılar" (səh. 29).

Mark Sayksın "provokasiyalar" haqqında olan son mülahizəsi bütün məsələnin cövhəri hesab olunur.

*(davamı növbəti saylarımızda)*

**Doktor Türkqaya Ataof,**
**Ankara Universitetinin Siyasi elmlər fakültəsi Beynəlxalq əlaqələr şöbəsinin professoru.**

**1996-cı il.**